## Yazıq MEHMAN



### Fələk

Çətin oldu bu sınağın,
Yanıb döndüm külə, fələk.
Gəlmədimi heç yazığın,
Saldın dildən-dilə, fələk.

Zülməti qoydun qarşıma,
Baxmadın axan yaşıma,
Od ələdin sən başıma,
Özün bilə-bilə, fələk.

Aldın əlimdən gözümü,
Gətirdin yerə dizimi.
Hardan alım de, dözümü,
Ağırlaşıb şələ, fələk.

Yazıq Mehman, getdi dəmin,
İndi zülmətdir həmdəmin.
Bu dünyanın dərdi-qəmin,
Az başıma ələ, fələk.

### Yana-yana

O xoş keçən günlərimdən
Yazıram mən yana-yana.
Bu bivəfa dünyaya da
Dözürəm mən yana-yana.

Ömür keçib, gün gödəldi,
Başıma gör nələr gəldi.
Fələk verib olmaz dərdi,
Gəzirəm mən yana-yana.

Yazıq Mehman düşüb oda,
Möhtac olub qohum-yada.
Yuxular şirin olsa da,
Yozuram mən yana-yana.

### Dərviş

Qapı-qapı nə gəzirsən,
Günü keçmiş qoca dərviş?!
Yaradanın ətəyindən
Yapış gündüz-gecə, dərviş!

Tutginən üzün qibləyə
Donunda gəzər övliya
Sidqini bağla Mövlaya,
İnan onda gücə, dərviş.

Yadigarsan babalardan,
Kömək dursun sənə Sübhan.
Söylə görüm, Yazıq Mehman,
Dözsün dərdə necə, dərviş?!

**Həkim**

Dərdə dərmana gəlmişəm,
Dərdim olub bol, ay həkim.
Söz düşəndə gözlərimdən,
Dilim olur lal, ay həkim.

Hanı məlhəm, hanı loğman?
Ötüb zaman, keçib dövran.
Sənsən indi ömrə bağban,
Bağındadır gül, ay həkim.

Bülbül bağda ötməlidir,
Ot kök üstə bitməlidir.
Yazıq Mehman getməlidir,
Sən salamat qal, ay həkim.

**Dönüb**

Bilməmişəm bu kəm bəxtim
Yanıb təmiz, külə dönüb.
Taleyimdən incimişəm,
Ətirsiz bir gülə dönüb.

Uçub ömrümün binası,
Dolub səbrimin kasası.
Tələsməyin nə mənası,
Həftəm-ayım ilə dönüb.

Gülü olan bağça-bağlı,
Qalmaya qapısı bağlı.
Mehmanın yatıb yığvalı,
Ömrü-günü selə dönüb.

**Bilmədim**

Saymadım niyəsə fələk sayanı,
Onunçün üstümü aldı, bilmədim?!
Hökmü var, dağlayar hər bir insanı,
Məni kəməndinə saldı, bilmədim.

Haqqım var, fələkdən umub-küsürəm,
Ürəyim yansa da, üzdə gülürəm,
Veribdir dərdimi, boldu, bilirəm,
Təbibi, loğmanı dandı, bilmədim.

Yazıq Mehman, vədəsizdi ölümün,
Çətin məqamıdır ömür-gününün,.
Sızlayan telləri xəstə könlümün,
Matəm kamançasın çaldı, bilmədim.